## Aksiz vergisi

İqtisadi mahiyyətinə görə aksizlər bir tərəfdən yüksək rentabelli məhsul istehsalından əldə edilən əlavə mənfəətin bir hissəsinin dövlət büdcəsinə tutulması, digər tərəfdən isə sosial cəhətdən zərərli malların istehlakının məhdudlaşdırılması məqsədilə tətbiq edilir. Aksizləri digər vergilərdən fərqləndirən əsas xüsusiyyət onların məhdud sayda məhsullara, yəni qanunvericilikdə ciddi surətdə «aksizli» adlanan mallara tətbiq edilməsidir. 1992-ci ildən tətbiq edilən aksiz vergisi əlavə dəyər vergisi ilə birlikdə dövriyyədən vergini əvəz etmişdir. Hal-hazırda dövlət büdcəsinin vergi gəlirlərinin tərkibində aksizlər kifayət qədər yüksək xüsusi çəkiyə malikdirlər.

***Aksiz markası***
***necə tətbiq edilir?***

Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi qaydaları Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş qaydalara əsasən tənzimlənir.

Azərbaycan Respublikasının ərazisində istehsal olunan markalanmalı mallara tətbiq edilən aksiz markaları bu malların istehsal olunduğu yerdə onların istehsalçıları tərəfindən yapışdırılır. Respublika ərazisinə idxal olunan pivəyə tətbiq olunan aksiz markaları Azərbaycan Respublikasının gömrük-buraxılış məntəqələrində həmin malı idxal edən şəxs tərəfindən gömrük orqanlarının əməkdaşlarının nəzarəti altında yapışdırılır.

Aksiz markaları malların şəffaf selofan örtüyünün altında yapışdırılır. Məhsul istifadə üçün açıldıqda həmin markalar təkrar istifadə üçün yararsız hala düşməlidir. Aksiz markaları malın üzərinə yapışdırılarkən rekvizitləri aydın görünməli, əzilməsinə yol verilməməli və onların gələcəkdə malın üzərindən zədələnmədən ayrılması ehtimalı mümkün olmamalıdır. Aksiz markası (pivə üçün nəzərdə tutulan qabın qapağına yapışdırılan aksiz markaları istisna olunmaqla) spirtli içkilərin, içməli spirtin və pivənin qablarına elə yapışdırılmalıdır ki, markanın bir hissəsi qabın boğazlığının yan tərəfinə, digər hissəsi isə qapağın üst tərəfinə düşsün. Aksiz markalarını pivə qapağının üstünə yapışdırmaq üçün avadanlıqları olan pivə istehsalçıları həmin markaları pivə qablarının qapağının üzərinə yapışdırırlar.

Tütün məmulatının qutusu bərk olduqda aksiz markası onun arxa tərəfinə yapışdırılmalı və qapağın bir hissəsini yan tərəfindən əhatə etməlidir. Tütün məmulatının qutusu yumşaq olduqda aksiz markası onun üst tərəfinin mərkəz hissəsinə və hər iki tərəfin hissələrinə yapışdırılmalıdır. Aksiz markalarının üzərində Azərbaycan Respublikasının simvolları, seriya, sıra nömrəsi, təyinatı və növü əks olunmalıdır. Eyni seriyaya malik olan aksiz markalarının sıra nömrələri təkrarlanmamalıdır. «Daxili istehsal», «idxal», və «müsadirə» üçün nəzərdə tutulmuş aksiz markalarının rəngləri bir-birindən fərqlənir.

***Müsadirə edilmiş***
***Malların satışı***

Malların dövlət nəfinə müsadirə olunması haqqında məhkəmə qərarına əsasən icra sənədini almış vergi orqanı dövlət qurumlarının mütəxəssislərini cəlb etməklə həmin malların istifadəyə yararlı olmasını və bunların topdansatış bazar qiymətini müəyyən edir. Topdansatış bazar qiymətləri müəyyən edilərkən malların bazar qablaşdırılması, komplektliyi, keyfiyyət sertifikatlarının olub-olmaması, istehsal edildiyi ölkə, istehsal tarixi, saxlanma müddəti nəzərə alınır. Zədələnmiş və qüsurlu halda müsadirə edilmiş malların topdansatış bazar qiymətləri müəyyən edilərkən öz keyfiyyətini nisbətən itirdikdə malların aşınma dərəcəsi, xırda qüsurlar olduqda onun aradan qaldırılmasına sərf olunan vəsaitin həcmi, habelə əmtəənin xarici görünüşünün itirilməsi dərəcəsi, bazarda analoji keyfiyyətli mallara olan tələbat, qiymətlər və sair nəzərə alınır.

Saxlanma müddəti və saxlanma şəraiti nəzərə alınmaqla müsadirə edilmiş mallar ilkin qiymətləndirmədən sonrakı 30 gün müddətində satılmadıqda onların keyfiyyətində və əmtəə görünüşündə mənfi dəyişikliklər baş verərsə, malların yenidən qiymətləndirilməsi həyata keçirilir.

Müsadirə edilmiş malların yenidən qiymətləndirilməsi vergi orqanı tərəfindən «Qiymətləndirmə haqqında» Qanuna uyğun olaraq mütəxəssislər cəlb etməklə həyata keçirilir. Yenidən qiymətləndirmə həmin malları satış üçün qəbul etmiş vergi ödəyicisinin anbarında yerinə yetirilir.

Vergi orqanı müsadirə edilmiş malların tez satılmasını, onların anbarlarda və ticarət obyektlərində yığılıb qalmasını istisna edən qiymətləndirmə siyasəti yeritməyə borcludur.

Vergi orqanı müsadirə edilmiş malların satışını tütün məmulatlarının və spirtli içkilərin satışı üçün lisenziyası olan vergi ödəyicilərinə məxsus ticarət obyektlərində təşkil edir. Satıcı müsadirə edilmiş malların satışına könüllülük əsasında cəlb edilir. Vergilər Nazirliyi ildə bir dəfə belə satıcıların siyahısını təsdiq edir. Vergi orqanları ilə satıcılar arasında münasibətləri tənzimləyən müqavilə bağlanır.

Müsadirə edilmiş mallar keyfiyyətini itirməsi, xarab olması, istifadə müddətinin ötməsi və sair səbəblərdən istifadə edilə bilmədikdə onların silinməsi və məhv edilməsi, ekspertlərin və digər ixtisaslaşmış laboratoriyaların həmin malların istifadə üçün yararsız olması barədə rəyi alındıqdan sonra həyata keçirilə bilər.

***Aksiz vergisindən daxilolmalar və proqnozlar***

2013-cü ilin büdcə layihəsində aksiz vergisindən daxilolmalar büdcə gəlirlərinin (Dövlət Neft Fondundan transfertlər istisna olunmaqla) 7,6%-ni təşkil etməklə 594 mln. manat proqnozlaşdırılır ki, bunun da 511 mln. manatının Vergilər Nazirliyinin, 83 mln. manatının isə Dövlət Gömrük Komitəsinin vasitəsilə təmin olunacağı gözlənilir. Aksiz vergisinin 2013-cü il üzrə nəzərdə tutulan həcmi 2011-ci ilin faktı ilə müqayisədə 113,8 mln. manat (23,7%), 2012-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə isə 60,4 mln. manat (11,3%) çoxdur. Vergilər Nazirliyi üzrə proqnozlaşdırılan aksiz vergisi 2011-ci ilin faktı üzrə 93,6 mln. manat (22,4%), 2012-ci ilin proqnozu ilə müqayisədə isə 56,4 mln. manat (12,4%) çoxdur. Gömrük orqanları üzrə proqnozlaşdırılan aksiz vergisi 2011-ci ilin faktı ilə müqayisədə 20,8 mln. manat (32,3%), 2012-ci ilin proqnozu ilə müqayisədə isə 4 mln. manat (5,1%) çoxdur.

Qeyd edək ki, cari ilin yanvar-oktyabr ayları ərzində aksiz vergisi üzrə büdcəyə 404,6 mln manat vergi daxilolmuşdur ki, bundan 390,4 milyon manatı neft sektorunun, 14,1 milyon manatı isə qeyri-neft sektorunun payına düşür.

Sonda onu da qeyd edək ki, spirtli içkilər və tütün məmulatları ilə yanaşı, neft məhsulları, o cümlədən minik avtomobilləri, istirahət və idman üçün yaxtalar üzrə də aksiz vergisi nəzərdə tululur.







Arzu İBRAHİMOVA